2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 568505,8 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz artaraq 535220,5 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 94,1 faizini təşkil edir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada tikinti sahəsində 11246 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 4,7 faiz artaraq 474,1 manat olmuşdur.